# GƏNC NƏSLİN VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNDƏ MUSİQİNİN ROLU

**Maralxanım Əliyeva**
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Baş müəllimi,
pedaqogika üzrə fəlsəfə doktoru
**E-mail:** m.aliyeva60@gmail.com

Vətən bizim namusumuz, şərəfimiz, azadlığımız, mənliyimizdir. Vətən torpağı müqəddəsdir. Vətən dəyişmir, satılmır, köhnəlmir, qocalmır, o, əbədi və əzəlidir. Azərbaycan xalqı gələcəyimiz olan gənc nəslin vətənə məhəbbət, xalqa, elinə, obasına hörmət, soykökünə, öz ata-babalarının ənənələrinə sədaqət ruhunda tərbiyə olunmasına həmişə böyük məsuliyyətlə yanaşıb və ona həyati əhəmiyyətli məsələ kimi baxıb. Son dövrdə cərəyan edən hadisələr göstərdi ki, gənc nəslin vətənpərvər ruhda böyüməsi doğrudan da vacib məsələlərdən biridir.

Vətənpərvərlik həm Vətən naminə çalışmaq, həm Vətəni qorumağa hər an hazır olmaq, onun yolunda qəhrəmanlıqlar, fədakarlıqlar göstərmək, Vətənin, xalqın hər bir uğuruna sevinməkdir. Bu hiss insanda anadangəlmə olsa da, digər hisslər kimi, tərbiyəyə möhtacdır və tərbiyə yolu ilə daha da möhkəmlənir, artır. "Əgər... təhsilə verilən tələblərə diqqət yetirsək görərik ki, müasir məktəb, müasir təlim-tərbiyə sisteminin əsas vəzifələrindən biri də savadlı, bacarıqlı, mədəni olmaqla bərabər, həm də Vətənini sevən onu qoruya bilən, sərvətlərini artıran bir insan, müstəqil respublikamız üçün vətəndaş yetişdirməkdir." (1, s. 6.). Vətənə məhəbbət hissi gənclərin dövlət atributlarına, ana dilinə, milli musiqiyə, folklora, mənsub olduğu dini dəyərlərə, tarixi ənənələrə bağlılığında, ölkə ərazisinin bütövlüyünün qorunmasına hazırlığını əməli işlə sübut etməyində öz təzahürünü tapmalıdır.

Ümumtəhsil məktəblərində vətənpərvərlik tərbiyəsi yüksək mənəviyyatlı şəxsin yetişdirilməsində mühüm rol oynayır. Respublikamızın ümumtəhsil məktəblərində tədris olunan təbiət və cəmiyyət elmlərinin, humanitar fənlərin, xüsusilə də "Musiqi" fənninin gənclərə vətənpərvərlik hissləri aşılamaq üçün çox böyük imkanları vardır və bu imkanlardan geniş şəkildə istifadə edilməlidir.

Azərbaycan ədəbiyyatının nəhəng simaları – söz və fikir adamları əsərlərində musiqi haqqında yüksək fikirlər söyləmişlər. Nizami Gəncəvinin "Xəmsə"sində insanpərvərlik, dostluq, düzgünlük, ədalət, Vətən sevgisi və digər əxlaqi keyfiyyətlər öz əksini tapır. Məhəmməd Füzuli, İmadəddin Nəsimi və digər korifeylərin qəzəl, poema, traktatlarında vətənpərvərlik, şəhidlik mövzusu qırmızı xətlə keçir.

A.Bakıxanov "Əxlaqın saflığı", "Nəsihətnamə", "Nurlar mənbəyi" və başqa əsərlərində gənc nəslin əqli inkişafına, dostluq, vətənpərvərlik, düzlük, doğruluq kimi əxlaqi keyfiyyətlərin tərbiyə olunmasına xüsusi diqqət yetirməyi məsləhət görür.

Görkəmli Azərbaycan maarifçisi, ictimai xadimi və pedaqoqu Həsən bəy Zərdabinin də əsərlərində, məqalələrində vətənpərvərlik, elmə həvəs, fiziki və mənəvi kamillik kimi keyfiyyətlərin formalaşdırılmasında musiqinin tərbiyəvi əhəmiyyətindən danışılır. Lakin o, təkcə deməklə kifayətlənmir, öz fikirlərini həyata keçirməyə, xalqın cəhalət yuxusundan ayılıb inkişaf yolu ilə irəliləməsinə yönəlmiş musiqi əsərlərinin xalq içərisində yayılmasına, sevilərək dinlənilməsinə, yəni təbliğinə əməli işlə də çalışırdı. Müəllimlərə çoxsaylı məktublar ünvanlayaraq, musiqiyə ciddi münasibət bəsləməyi məsləhət görürdü. "Bizim nəğmələrimiz" adlı məqaləsində yazırdı: "Bakıda şəhərin rus-müsəlman məktəbləri ilbəil açılan vaxt müəllimlərin bir neçəsindən təvəqqe etdim ki, millətin tərəqqisinə kömək edəcək şeirlər yazıb şagirdlərə oxumağı öyrətsinlər. Sonradan doğrudan da müəllimlər bu cür şeirlər yazıb, şagirdlərə oxumağı öyrətdilər." (2, s.240).



Böyük mütəfəkkir bu mahnıların təkcə gözəl melodiyaya deyil, həm də dərin məna kəsb edən məzmuna malik olmasını tələb edirdi. O, bir neçə il ərzində çoxsaylı mahnılar toplayaraq, 1901-ci ildə "Türk nəğmələri məcmuəsi" adı altında çap edib, məktəblərə pulsuz çatdırmışdı.

H.Zərdabinin çağırışından sonra S.Ə.Şirvani, M.Ə.Sabir, A.Səhhət və Abdulla Şaiq sözügedən istiqamətdə fəaliyyət göstərməyə başladılar. A.Səhhət "Nəğmə və musiqinin məktəblərdə əhəmiyyəti" adlı məqaləsində yazırdı: "Musiqinin ən böyük faydası ifadə etdiyi duyğular və tərənnüm etdiyi sözlərdə aranmalıdır... Deməli ki, nəğmə, vəzn sözləri zehinlərdə kökləşdirir, ürəyə qədər nüfuz edir və bu vasitəsi ilə insanda əxlaqi və vətəni duyğular oyadır. Sırf nəsihət qaydasında söylənən sözlər uşaqlara o qədər təsir etməz ki, əxlaqi şeirlər və vətəni nəğmələr o qədər artıq təsir edər və bu təsir nəticəsində dərslərin irəli getməsinə çox kömək edər."

Böyük şairimiz M.Ə. Sabir də gənclərimizin vətənpərvər ruhda tərbiyələrinə əhəmiyyət verirdi. O, hələ 1908-ci ildə Şamaxıda açdığı "Ümid məktəbi"ndə şagirdlərə vətənə, doğma torpağa, təbiətə sevgi hisslərini tərbiyə edə biləcək "Məktəbə tərğib", "Elmə tərğib", "Cütçü",

"Yaz günləri" və s. kimi şeirləri xalq melodiyaları ilə birgə oxutdururdu.

Görkəmli dövlət xadimi Nəriman Nərimanov da tərbiyə işində musiqinin böyük imkanlarını görür və gənclərimizin vətənpərvər vətəndaş kimi yetişməsində rolunu təsdiq edirdi. Bu barədə F.Köçərli belə yazırdı: "Millətin keçmişini, keçmişdəki qəmini, sağlığını, ədalətini və bütün həyatının nə cür keçdiyini misallarda, tapmacalarda, nağıllarda və musiqidə oxumaq mümkündür... "Kamarinskaya" çalanda bir rusun bədəni titrədiyi kimi, "Çoban şikəstəsi" də bir azərbaycanlı balasını dərin-dərin fikirlərə salır. Bu hissi gizlətmək mümkün deyildir, bu hiss qəhrəmanlar qanı tökmüşdür." (3, s. 372).

Azərbaycan bəstəkarlarının, ilk növbədə də dahi Ü.Hacıbəylinin yaradıcılığında vokal-xor musiqisi mühüm yer tutur və onun böyük bir hissəsi qəhrəmani-vətənpərvərlik mövzusu ilə bağlıdır. Yüksək vətənpərvərlik və beynəlmiləlçilik hissi ilə yazıb-yaradan sənətkarlarımızın hər bir əsəri qüdrətli təsir vasitəsi kimi mənəvi-estetik tərbiyə işini emosional cəhətdən daha da zənginləşdirir.

Düzgün ideoloji tərbiyənin əsas şərtlərindən biri musiqi əsərlərinin düzgün seçilməsidir: vətənimizin qüdrətini, gözəlliyini, xalqın əməyini, qəhrəman keçmişini, sülhü tərənnüm edən əsərlər proqrama daxil edilməlidir. "Müəllim təlim prosesində şagirdlərdə vətənpərvərlik, digər xalqlarla dostluq hissi yaratmalı və onlara Azərbaycan xalqının əxlaqi-siyasi birliyi ideyalarını aşılamalıdır." (4, s.79.).

Azərbaycan Demokratik Respublikası dövrünün siyasi xadimi Yusif Vəzir Çəmənzəminli xalqda "intiqam hisslərini oyadan", "qüdrətli birlik" hissləri doğuran milli vətənpərvərlik mahnılarının əhəmiyyətini görürdü. O, "Milli şərqi" məqaləsində bu haqda belə yazırdı: "O nəğmə oxunduqda millət fərdlərinin ruhu ucalır. Mübarizə edib öz xalqını mühafizə etmək xahişi artır."

Ümummilli liderimiz Heydər Əliyev öz çıxışlarının birində demişdir: "Biz çalışmalıyıq ki gənclərimiz Azərbaycan xalqına xas olan mənəvi, milli ənənələr əsasında tərbiyə edilsinlər". Orta məktəblərdə çalışan musiqi müəllimi Azərbaycan xalq musiqisi ilə də uşaqları tanış etməli, bu musiqiyə sevgi hissləri aşılamalıdır. Milli adət-ənənələrimizə hörmət etmək, onu qoruyub saxlamaq milli musiqimizin incəliklərini bilmək, Azərbaycanın görkəmli şəxsiyyətlərini tanımaq ruhunda şagirdləri tərbiyə etmək müəllimin borcudur.

Hər xalq öz tarixinin gözəl səhifələri ilə, bəşər mədəniyyəti xəzinəsinə bəxş etdiyi incilər və böyük şəxsiyyətlərlə təbii olaraq fəxr edir. Azərbaycan xalqının belə oğulları sırasında böyük bəstəkar və mütəfəkkir Üzeyir Hacıbəyli xüsusi yer tutur. Bu nəhəng sənətkarın yaradıcılığı əsasən 1910-40-cı illərə, yəni Azərbaycan tarixinin mürəkkəb dövrünə təsadüf etmişdir. O, zamanın tələblərini dərk edərək, qəhrəmani-vətənpərvərlik mövzuda hətta bu gün də aktual səslənən bir çox ölməz əsərlərini bəstələyib, gələcək nəsillər üçün yadigar qoymuşdur. Bunların sırasında "Milli marş", "Azərbaycan marşı", "Çırpınırdın, Qara dəniz", "Süvari", "Çağırış", "Ananın oğluna nəsihəti", "Döyüşçülər marşı", "Şəfqət bacısı", "Vətən ordusu", "Yaxşı yol", "Cəbhəyə", "Əsgər marşı", "Səni gözləyir" mahnıları, "Ey, Vətən", "Zəfər himni", "Vətən və cəbhə" kantataları və bu mövzuda şah əsəri olan "Koroğlu" operası və orada səslənən qəhrəmani "Çənlibel" xoru... Bu əsərlər əsasən Azərbaycanda baş verən ictimai-siyasi hadisələrlə bağlı tarixi dövrlərdə yaranmışdır.

Hərbi vətənpərvərlik mövzusunda digər bəstəkarlarımızın da müxtəlif janrlarda möhtəşəm əsərləri vardır. Sadəcə, onların adlarını çəkmək bəs edər ki, bu barədə dolğun təsəvvür yaransın: R.Mustafayevin "Salatın" oratoriyası, "Haqq səninlədir, Azərbaycan" kantatası, Süleyman Ələsgərov və Eldar Mansurovun bu mövzuda xeyli sayda mahnıları, Mobil Babayevin "Məmləkətim" kantatası, Tahir Əkbərin "Azadlığa gedən yollar", "Azərbaycan" odaları, Rəşid Şəfəqin "Ana torpaq Qarabağ" vokal-xor silsiləsi, E.Sabitoğlunun "Can, can Azərbaycan", "Sıravi Əhməd" mahnıları, A.Dadaşovun "Ana torpaq", "Qarabağım" mahnıları və "Azərbaycan – Türkiyə" kantatası, N.Mirməmmədlinin "Əsgər qardaşlar", "Qələbə marşı" mahnıları və s.

Bu gün - torpaqlarımız işğaldan azad olunduqdan sonra ümid edirik ki, bəstəkarlarımız vətənpərvərlik ruhunda yeni-yeni əsərlər yazacaq, elə əsərləri ki, orada xalqımızın birliyi, mübarizliyi, fədakarlığı, ordumuzun rəşadəti, qəhrəmanlığı və misilsiz şücaəti öz əksini tapacaqdır. Həmin əsərlərdə artıq məğlubiyyət deyil, böyük Qələbə ruhu təsvir ediləcəkdir, o qələbə ki, minlərlə şəhid və qazilərimizin, vətənin igid oğulları və müdrik, cəsur rəhbərliyi sayəsində mümkün olmuşdur.

Gənclərin yetişməsində vətənpərvərlik mahnılarının, bu istiqamətdə yazılan musiqi əsərlərinin yeri əvəzsizdir. Yeni nəsillərin vətənə sevgi, düşmənə nifrət aşı¬layan mahnılara, sənət əsərlərinə böyük ehtiyacı var. Vətənpərvərlik əsərləri günü-gündən daha çox təbliğ olunmalı, onların arasından keyfiyyətliləri məktəblərdə öyrənilməlidir ki, əsl vətəndaşlar, qorxmaz igidlər nəsli yetişdirək və bir daha heç bir düşmən bizim torpaqlara gözünün ucu ilə də baxmağa cürət etməsin! ❖

**Ədəbiyyat:**

1. F.Hidayətova. «Musiqi və vətəndaşlıq tərbiyəsi», Bakı, 2009, 187 s.
2. H.B.Zərdabi. «Seçilmişa əsərləri», Bakı, 1960, 475 s.
3. F.Köçəli. "Nəriman Nəimanov", Bakı, 1965
4. O.Rəcəbov, F.Hidayətova. "Ümumtəhsil məktəblərində musiqi tədrisi və tərbiyəsi metodikası", Bakı: "Mütərcim", 2013,
5. S.Quliyev. "Musiqi inkişafı və musiqi tərbiyəsi", Bakı,1981

**Резюме**

Маралханым Алиева

ЗНАЧЕНИЕ МУЗЫКИ В ПАТРИОТИЧЕСКОМ ВОСПИТАНИИ МОЛОДЕЖИ

Роль патриотических песен и музыкальных произведений, написанных в этом направлении, незаменимо в воспитании молодежи. Азербайджанская молодежь остро нуждается в патриотических песнях и произведениях искусства. Нужно все больше пропагандировать произведения патриотического содержания, лучшие из них нужно изучать в школах, чтобы мы могли воспитать поколение истинных граждан, бесстрашных героев и чтобы ни один враг не посмел бы даже взглянуть на наши территории.

**Ключевые слова:** музыка, патриотическое воспитание, музыкальное произведение, новое поколение

**Summary**

Maralkhanum Aliyeva

THE VALUE OF MUSİC İN THE PATRİOTİC EDUCATİON OF YOUTH

The place of patriotic songs and musical works written in this direction is irreplaceable in the education of young people. Azerbaijani youth is in dire need of patriotic songs and works of art. We need to promote more and more works of patriotic content, the best of them need to be studied in schools, so that we can raise a generation of true citizens, fearless heroes and so that no enemy would even dare to look at our lands.

**Key words:** music, patriotic education, piece of music, a new generation